# Həmkarlarımızı COP29 barədə informasiyaların yayılması üzrə birgə fəaliyyətə dəvət edirik

**İqlim dəyişikliyi, "yaşıl enerji"yə keçid, ətraf mühitin mühafizəsi və bərpaolunan enerji mənbələri son vaxtlar ən çox müzakirə olunan mövzular arasındadır. Biz görürük ki, dünya mediası göstərilən məsələlərə necə böyük diqqət yetirir, mətbuatda bu mövzunun işıqlandırılması ilə bağlı müzakirələr aparılır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri Vüqar Əliyev mayın 3-də keçirilən MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformasiya Şurası) XXXI iclasında bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevin cari ili ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan etdiyini xatırladan idarə heyətinin sədri iclas iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycanda bu sahədə böyük layihələr həyata keçirilir, yeni hidroelektrik, günəş və külək elektrik stansiyaları tikilir.

Vüqar Əliyev qeyd edib: "Prezident İlham Əliyev işğaldan azad edilmiş əraziləri "yaşıl enerji" zonası elan edib. Tamamilə dağıdılmış və yenidən dirçəldilən bu ərazilərdə "yaşıl enerji" onların bərpası prosesinin əsas istiqaməti olacaq".

O həmçinin xatırladıb ki, Azərbaycan 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək, iki həftə ərzində Bakı dünyanın mərkəzinə çevriləcək və ölkəmizə 80 minə yaxın əcnəbi qonaq gələcək. idarə heyətinin sədri vurğulayıb ki, 198 ölkə konvensiyanın tərəfdaşıdır və bu, tədbirin necə böyük miqyasa malik olduğunu göstərir.

Agentliyin rəhbəri deyib: "AZƏRTAC bu konfransın işıqlandırılmasında fəal iştirak edəcək. Biz, həmçinin həmkarlarımızı öz ölkələrindəki auditoriya üçün maraqlı və faydalı olacaq məlumatları yaymaq istiqamətində birgə fəaliyyət göstərməyə dəvət edirik. Əminəm ki, birgə səylərlə insanlara ölkələrin iqlim dəyişikliyi və "yaşıl enerji"yə keçidlə bağlı qəbul etdikləri qərarlar barədə daha yaxşı məlumat verə bilərik".

Birliyə üzv ölkələrin dövlət xəbər agentlikləri arasında əməkdaşlıqdan danışan Vüqar Əliyev qeyd edib ki, son vaxtlar bu əlaqələr intensivləşib. Bu, təcrübə mübadiləsinə və birgə layihələrin həyata keçirilməsinə imkan yaradır. O, bu kontekstdə TASS agentliyinin Moskvada təşkil etdiyi seminarları, eləcə də AZƏRTAC ilə TASS arasında həyata keçirilən mübadilə proqramını məhsuldar adlandırıb.

İdarə heyətinin sədri çıxışının sonunda əlavə edib: "İnformasiya Şurasının gündəliyində məsələlər çoxdur. Biz artıq qələbənin 80 illiyi (İkinci Dünya müharibəsində), eləcə də 2025-ci ildə Azərbaycanda keçiriləcək MDB Oyunları kimi əlamətdar hadisələri işıqlandırmağa hazırlaşırıq. Həqiqətən, İnformasiya Şurası bir əsrlik tarixə malik olan agentlikləri birləşdirir. Dekabrda BELTA 105 illiyini qeyd etdi, sentyabrda isə TASS 120 illik yubileyini bayram edəcək. Gələn il AZƏRTAC üçün də yubiley ili olacaq, biz 105-ci ildönümümüzü qeyd edəcəyik".

Azərbaycan.- 2024.- 4 may, № 91.- S.11.